# Sovet təyyarəçilərini hamıdan yüksəyə qaldıran adam

## ”Molotov kokteyli”nin müəllifi Yusif Məmmədəliyev ermənilərin sayəsində Nobel mükafatı ala bilməyib



**”Sovet aviasiyasının məşhur qəhrəmanı Pokrışkindən, general Dzusovun igid təyyarələrindən və ya general Osipenkonun qırıcılarından soruşun, havada ağalıq etməkdə sizə kim kömək etdi? Yakovlev, Mikulin və Məmmədəliyev - onlar bir iş gördülər: sovet təyyarəçilərinə hamıdan yüksəkdə, hamıdan uzağa uçmaqda kömək etdilər”.**

Bu, Sovet dövründə ”Vışka” qəzetində çıxmış məqalədən bir hissədir. Qəhrəmanımız yuxarıda adı çəkilən, Sovet təyyarələrinin havada ağalıq etməsinə yardım edən üç insandan biridir: Məmmədəliyev. Məhz Yusif Məmmədəliyevin sayəsində SSRİ aviasiyası yüksək oktanlı yanacaqla təmin edilmiş və bu kəşfin sayəsində 1943-cü ilin qışından II Dünya Müharibəsinin sonunadək İL-2 və La-5 sovet qırıcı təyyarələri havada üstünlüyü ələ keçirmişdilər. Qəhrəmanımız həm də hamımızın yaxşı tanıdığı ”Molotov kokteyli”nin müəllifidir.

Azərbaycan-sovet kimyaçı alimi, kimya elmləri doktoru, professor, Azərbaycan SSR EA akademiki və prezidenti, SSRİ EA müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan SSR Elmlər Akademiyasının yaradıcılarından olan Azərbaycanın ilk kimyaçı akademiki Yusif Məmmədəliyevin həyat yoluna birlikdə nəzər salaq. Qeyd edək ki Azərbaycan Astrofizika Rəsədxanası, Əlyazmaları Fondu, Sumqayıt Kimya Elmi Mərkəzi digər müəssisələrin təşkili Y.Məmmədəliyevin adı ilə bağlıdır.

### MOLLAXANADA TƏHSİL

Y.Məmmədəliyev 1905-ci il dekabrın 31-də Ordubad rayonunda Heydər kişinin ailəsində dünyaya göz açıb. O, altı uşağın beşincisi olub. Dindar olan atası böyük ailəni evdən 1,5 km aralıda yerləşən meyvə bağını becərməklə saxlayıb.

Anası Gülsümün hesabına Yusifdə balacalıqdan poeziyaya, sözə, dastanlara böyük maraq yaranıb. Anası yaza bilməsə də, çoxlu mahnı və zərb-məsəllər bilir, mahnıları, lirik şeirləri yaxşı yadında saxlayırdı.

Məktəb yaşı çatanda Yusif mollaxanada təhsilə başlayır. Yusif sonralar yazırdı ki, ilk dəfə mollaxanada oxumağı öyrəndikdən sonra kitabın sehrinə düşmüşdü. Kitab onun qarşısında zaman və fəza sərhədləri bilinməyən bir dünya açmışdı. O, mollaxanada Sədi və Hafiz poeziyasının şirinliyini dərk etmişdi.

Yusifin atası Hacı Heydər savadsız olsa da, onda elmə, alimə güclü hörmət hissi vardı. Evində dəmir lövhələrlə bəzədilmiş böyük sandıqda ağır üzü olan kitablar və əlyazmalar qorunub saxlanılırdı. Yusif evdəki kitabların hamısını, sonra da qonşuda yaşayan gömrük məmurunun kitabxanasındakı kitabları oxumuşdu. Hətta iş o yerə çatır ki, valideynləri Yusifin görmə qabiliyyətini itirəcəyindən qorxaraq ona oxumağı qadağan edirlər. Yusif isə qadağaları pozur. O, evdə və qonşuda olan kitabların hamısını oxuyub qurtardıqdan sonra Ordubaddan 7-8 km aralıda yerləşən Əylis kəndində müəllim Mirzə Abdulvahab Həsənzadənin kitabxanasındakı kitabları mütaliəyə keçir.

Yusif 9-15 yaşlarında klassik Şərq ədəbiyyatını gözəl mənimsəmişdi. Hələ üstəlik, məhz həmin dövrlərdə üç əsas Yaxın Şərq dilində sərbəst danışırdı.

Uzun illər sonra Yusif Məmmədəliyev Qərb ölkələrindən Azərbaycana qonaq gələn neft kimyası üzrə alimlərdən biri ilə Nizami muzeyində olur. Qonaq nümayiş etdirilən əlyazmalardan biri ilə maraqlanır. Muzeyin bələdçisi fars dilini bilmir. Elə bu vaxt Akademiyanın prezidenti Yusif Məmmədəliyev şeiri əvvəlcə fars dilində oxumağa başlayır, sonra isə ingilis dilinə tərcümə edir. Bu, qonağın heyrətinə səbəb olur.

Yusif Məmmədəliyev hələ məktəb illərində şeirlər yazıb, lakin onların əlyazması qalmayıb. Amma Bakı Pedaqoji İnstitutunda oxuyarkən yazdığı şeirləri məlumdur.

### ZELİNSKİNİN ARZUOLUNAN QONAĞI

1918-ci ilin iyulunda bütövlükdə Naxçıvanda, o cümlədən Ordubadda baş verən hadisələrlə əlaqədar çoxlu sayda insan Arazdan keçib İrana qaçır. Yusifin ailəsi də təxminən bir il Təbrizdə qalır. Burada Yusif və qardaşı Məhəmməd yeddiillik fars məktəbinə gedirlər. Yusifin ailəsi yenidən Ordubada qayıdır.

1921-ci ildə on altı yaşlı Yusifi müəllimliyə dəvət edirlər. O, gündüzlər uşaq və yeniyetmələrə, axşamlar isə savadsızlığı aradan qaldırmaq üçün yaşlılara dərs deyir. Yusif iki il yarım müəllim işləyir. 1923-cü ilin yayında 18 yaşlı Yusif Ordubaddan Bakıya gəlir və Azərbaycan Ali Pedaqoji İnstitutunun təbiət fakültəsinə daxil olur. Təbiət bölməsinə daxil olsa da, poeziyadan əl çəkmir, şeirlər yazmağa davam edir. İnstitutu bitirdikdən sonra təyinatla Gəncə şəhər orta məktəbinə müəllim göndərilir. 1928-1929-cu illərdə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda və fəhlə fakültəsində müəllim işləyir. Daha sonra arzularını gerçəkləşdirmək üçün elm dalınca Moskvaya yollanır. Təhsilini Moskva Universitetinin kimya fakültəsində davam etdirir. Burada tale onu SSRİ Elmlər Akademiyasının akademiki Nikolay Dmitriyeiç Zelinski ilə qarşılaşdırır. Bu görkəmli alim hansı tələbəyə ”mənim tələbəm” deyirdisə, artıq ona öz övladı kimi baxırdı. Lakin bu xoşbəxtlik tək-tək tələbəyə nəsib olurdu. Belə tələbələrdən biri, həm də ən yaxşılardan yaxşısı məhz Yusif Məmmədəliyev idi. O, hər zaman müəlliminin arzu olunan qonağı, ailəsinin sevimlisi idi.

Moskva Dövlət Universitetində kataliz və üzvi-kimya sahəsində N.D.Zelinskinin məktəbini keçdikdən sonra Y.Məmmədəliyev bir müddət Moskvada kimya zavodunda çalışır, 1932-ci ildə o, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KPMK) məktubuna əsasən, Azərbaycana çağırılır. Bakıya qayıdan Məmmədəliyev təbii və neft emalından alınan qazların kimyəvi yolla işlənməsi ilə məşğul olur və bununla Azərbaycanda neft kimya elminin inkişafına böyük təkan verir.



### MƏMMƏDƏLİYEVİN "MOLOTOV KOKTEYLİ"

Dünya şöhrətli azərbaycanlı alimin kəşfinin ”Molotov kokteyli” adlandırılmasının maraqlı tarixçəsi var. Qeyd edək ki, faşist ordularına qarşı Sovet İttifaqının qələbəsində tank əleyhinə olan bu qarışığın kəşfinin çox böyük əhəmiyyəti oldu. Partlayıcı ”Molotov kokteyli” adlanan maddə Vyaçeslav Molotovun adına olsa da, o maddənin əsas tərkibi, mahiyyəti Y.Məmmədəliyevin adı ilə bağlıdır. ”Molotov kokteyli”nin içərisinə tökülən qarışıq toluol maddəsini məhz o, kəşf edib.

SSRİ-nin o vaxtkı xarici işlər naziri Vyeçeslav Molotovun dəmək olar ki, bu kəşfdən xəbəri də olmayıb. Sadəcə, 1941-ci ildə İngiltərənin baş naziri Uolt Çörçillə görüşərkən partlayıcı maddə haqqında məlumat verib, onun məziyyətlərindən söz açıb. Elə həmin görüşdəcə Çörçill SSRİ xarici işlər nazirinə deyib ki, bu partlayıcı vasitənin adını onun şərəfinə ”Molotov kokteyli” qoyur.

**Lalə MUSAQIZI**

### NOBEL MÜKAFATINA NAMİZƏD

Y.Məmmədəliyevin kəşfləri çox olub. Kəşflərindən birinə, Sovet təyyarələrinin üstünlük qazanmasına səbəb olan qırıcı təyyarələr üçün keyfiyyətli benzin kəşfinə görə ona Nobel mükafatı verəcəkdilər.

Məmmədəliyevin Nobel mükafatına namizədliyi 1957-ci il dekabrın 29-da Sovet İKP MK Siyasi Bürosunun iclasında müzakirəyə çıxarılır. Baş katib Xruşşov, büro üzvləri və üzvlüyə namizədlər fikirlərini bildirdikdən sonra sənədlərin Nobel Komitəsinə təqdim olunması haqqında razılığa gəlirlər. Elə bu zaman qəfildən iclasa ünvanlanan bir məktub üzə çıxır. Mərkəzi Komitə katibliyinin təqdim etdiyi məktubda Sovet Ordusu Arxa Təchizat İdarəsinin rəisi marşal Baqramyan, Tank Qoşunları komandanı general Babacanyan dövlət sirri və hərbi sirr olduğu üçün bu ixtiraya dair məlumatın Stokholma göndərilməsini məsləhət görmürlər. SSRİ DTK-nın sədri Şepilovun məktubda yazılanlara qəti etirazına baxmayaraq, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Anastas Mikoyan çıxış edərək məktubun müəlliflərinə haqq qazandırır və onları dəstəkləyir. Beləliklə, üç yüksək vəzifəli erməninin fitvası ilə Y.Məmmədəliyevin Nobel mükafatına namizədliyinin irəli sürülməsi baş tutmur.

Əslində, Nobel Komitəsinin tövsiyəsinə görə, alimlər öz təkliflərini açıqlamamalı, heç bir yerdə müzakirə etməməlidirlər. Hətta namizədin özünün belə bundan xəbəri olmamalıdır. Lakin sovet rejimində bu qaydaya riayət etmək mümkün deyildi.

Bu kəşfdən sonra Məmmədəliyev Stalinin təşəkkürünü alıb, ”Lenin” orderi ilə təltif olunub və birbaşa kimya elmləri doktoru alimlik dərəcəsi və professor elmi adına yiyələnib.

Qeyd edək ki, onun alkilləşmə, xlorlaşma, polimerləşmə və s. sahələrdəki fundamental tədqiqatları və elmi əsərləri indi də alimlərin elmi tədqiqatlarında göstərici rol oynayır. Bu tədqiqatların yekunlarına görə, Moskva Dövlət Universitetinin Elmi Şurası Y.Məmmədəliyevə müdafiə etmədən kimya elmləri namizədi alimlik dərəcəsi verir.

### AMEA-NIN PREZİDENTİ, ADU-NUN REKTORU

Böyük Vətən müharibəsinin qurtarması ərəfəsində SSRİ Elmlər Akademiyasının prezidenti V.L.Komarov Bakıya gəlir. İsmayiliyyə binasında Azərbaycan tarixində ilk Elmlər Akademiyasının yığıncağı keçirilir. 40 yaşlı Yusif Məmmədəliyevin fəaliyyətini yüksək qiymətləndirən Komarov deyir: ”Təkcə Yusif Məmmədəliyevə görə Azərbaycanda Elmlər Akademiyasını yaratmağa borcluyuq”.

1945-ci ilin martında Respublika Elmlər Akademiyası təşkil olunanda Y.H.Məmmədəliyev onun ilk həqiqi üzvləri sırasına daxil olur. Onun təşəbbüsü ilə Akademiyada yaradılmış Neft İnstitutuna başçılıq edir.

Böyük kimyaçı alim 1947-ci ildə Azərbaycan Elmlər Akademiyasının Prezidenti seçilir. 1954-cü ildə Azərbaycan Dövlət Universitetinə rektor təyin olunur.

### ƏMƏLİYYAT ÜÇÜN MOSKVANI DEYİL, BAKINI SEÇİR

Yusif Məmmədəliyev ikinci dəfə Azərbaycan Elmlər Akademiyasının prezidenti olarkən ağır xəstələnir, üzərində ciddi cərrahi əməliyyat aparılması lazım gəlir. Lakin dostları, yaxın qohumları onu bu əməliyyat üçün Moskvaya getməyə razı sala bilmirlər. O, öz ölkəsinin həkimlərinin şərəfinə toxunmasın deyə başqa şəhərdə əməliyyat olunmağa razılıq vermir və 1961-ci il dekabrın 15-də vəfat edir.

**P.S. Məqalə İnternet materialları əsasında hazırlanıb.**